# Avtomobillər aksiya ərazisindən sərbəst keçib







Gün ərzində sülhməramlıların Xankəndidən gələn 30-u yük, 5-i isə minik avtomobili olmaqla 35 avtomobili Laçın istiqamətinə gedib. İki yük avtomobili isə əks tərəfə istiqamət alıb.

❖❖❖

Rusiya sülhməramlılarına məxsus doqquz avtomobil azərbaycanlı ekofəalların Laçın-Xankəndi yolunda dinc məqsədlə təşkil etdikləri aksiya ərazisindən sərbəst keçib. Sülhməramlıların Xankəndidən gələn 9 yanacaqdaşıyan avtomobili bu dəqiqələrdə Laçın istiqamətinə gedib.




❖❖❖

Rusiya sülhməramlılarına məxsus bir avtomobil azərbaycanlı ekofəalların Laçın-Xankəndi yolunda dinc məqsədlə təşkil etdikləri aksiya ərazisindən sərbəst keçib. Xankəndidən gələn bir minik avtomobili Laçına gedib. Azərbaycanlı ekofəallar etirazların ilk günündən humanist prinsiplərə sadiqdirlər. Heç də siyasi xarakter daşımayan bu aksiya Qarabağ ərazisində faydalı qazıntı yataqlarının istismarına qarşıdır.

Qeyd edək ki, dünən gün ərzində aksiya ərazisindən 71 avtomobilin sərbəst keçidi təmin olunub.

***AZƏRTAC***

Azərbaycan.- 2023.- 23 fevral.- S.7.